# XƏLİFƏLİ KƏND UŞAQ MUSİQİ MƏKTƏBİNDƏ...

## Əlamətdar, yaddaqalan bir gün

**Artıq bir ənənə halını almış bayram ovqatlı günləri yaşamaq Şuşa rayon Xəlifəli kənd Uşaq Musiqi məktəbinin həyat qayəsinə çevrilib. Yəni məktəb Bakı şəhərində məskunlaşdığı gündən etibarən hər il Respublika günü ərəfəsində hesabat xarakterli bayram konserti təşkil edir. Keçirilən konsertdə əsas məqsəd pedaqoji kollektivin il boyu qazandığı uğurları nümayiş etdirməklə müəllim və şagirdlərə, eləcə də konserti izləyən valideyn və digər tamaşaçılara Respublika gününün bayram ovqatını yaşatmaqdır.**



Ötən həftənin bazar günü paytaxtımızın Binəqədi rayonunun Biləcəri qəsəbəsində fəaliyyət göstərən Xəlifəli kənd Uşaq Musiqi məktəbində yenə bayram şənliyi təşkil olunmuşdu. Ənənəyə uyğun olaraq bu izdihamlı konsert şənliyi giriş sözü ilə məktəbin direktoru Salman Ağalarov açdı. Salman müəllim öz çıxışında öncə müəllim və şagirdləri, eləcə də iştirakçıları 28 May günü münasibətilə ürəkdən təbrik edib, müstəqilliyimiz uğrunda şəhid olanların ruhunu bir dəqiqəlik sükutla yad etməyi təklif etdi. Bir anlıq zala sükut hakim oldu. Hər kəs ürəyində şəhidlərimizin xatirəsini yad etdi. Sonda çıxışını davam etdirən Salman Ağalarov il ərzində şagird və müəllimlərin qazandığı uğurlardan söz açdı və bildirdi ki, həmin uğurları nümayiş etdirən hesabat konsertimzizdə Şuşa rayon İcra Hakimiyyətinin başçısının müavini Vüsalə Fətəliyevə, həmçinin Şuşa rayon Mədəniyyət şöbəsinin baş məsləhətçisi Sahib Abbasov da iştirak edir. O, hesabat konsertin başlandığını bildirərək sözü öncə məktəbin xor kollektivinə verdi. Məktəb xoru "Üçrəngli bayrağımız" mahnısını ifa etməklə hər kəsə bir bayram ovqatı yarada bildi. Bir-birinin ardınca çıxış edən məktəbli ifaçılar öz rəngarəng çıxışları ilə hamının ruhunu oxşamaqla yanaşı, alqışlarını da qazana bildi. Belə ki, məktəbin "Saz" ansambılı "Osmanlı divanisi"ni ifa edəndə artıq bütün dinləyicilər sanki cəngi üstündə köklənmişdi. Bu əsl bayram ovqatı demək idi.



7-ci sinif şagirdi Rəhimə Hacıyevanın böyük bəstəkar Baxın "İnvensiya siminkor" bəstəsi bir həzinlik bəxş etdi dinləyicilərə. Onun ardınca çıxış edən tar çalanların "Şüştər dəraməti" ifası da gurultulu alqışlarla qarşılandı. Tədbir iştirakçılarını salamlayan Vüsalə Fətəliyeva öz məzmunlu çıxışında Xəlifəli kənd Uşaq Musiqi məktəbinin hər il düzənlədiyi tədbirlərdə maraqlı proqramlar təşkil etdiyini xüsusi vurğuladı və müəllim şagirdləri, bütövlükdə hər kəsi qazanılan uğurlara, eləcə də respublika günü münasibətilə təbrik etdi. Hesabat konsertdə çıxış edən dəyərli qarabağlımız, Şuşa mədəniyyətinin inkişafında və qorunmasında xüsusi xidmətləri olan Zahid Abbasov məktəb kollektivinə öz fikirlərini çatdırarkən vurğuladı ki, Şuşanın adı kimi onun mədəniyyət ünvanlarının qazandığı uğurlar da həmişə qürurum olub, sevincim olub. Bu gün də siz mənə sevinc yaşatdınız. Göstərdiniz ki, harda fəaliyyət göstərməsindən asılı olmayaraq, şuşalılar və Şuşa mədəniyyətinin daşıyıcıları həmişə seçiliblər, bu gün də seçilirlər. Mən də öz növbəmdə məktəbin direktoru Salman müəllimi, eləcə də bütün pedaqoji kollektivi bu hesabat münasibətilə ürəkdən təbrik edirəm. İnanıram ki, biz mütləq "üçrəngli bayrağımı" mahnısını məhz Şuşa məktəblilərinin xorunun ifasında Cıdır düzündə dinləyəcəyik.

**Konsert dinləyicilərin alqış və maraqları ilə davam etdirildi. Və sonda təhsildə fərqlənən müəllim və şagirdlər fəxri fərmanlarla təltif edildilər. Həmin gün Xəlifəli Uşaq Musiqi Məktəbinin tarixinə əlamətdar bir tarix olaraq qeyd olundu.**

Əbülfət MƏDƏTOĞLU